**Hörmətli Abituriyent!**

**“ADA” Universitetinə qəbul olmağınız münasibətilə Sizi təbrik edirik!**

Ümid edirik ki, “ADA”-da təhsil aldığınız müddət sizin üçün səmərəli və maraqlı olacaqdır. Qəbulunuzun rəsmiləşdirilməsi üçün qeydiyyatdan keçmək tələb olunur. Qeydiyyatın tamamlanması üçün **son tarix 15 iyul, 2022-ci il saat 13:00**-dır. Abituriyentin son tarixə qədər qediyyatdan keçməməsi təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.

**Qeydiyyat qaydaları**

Aşağıda göstərilmiş sənədləri “ADA” Universitetinə təqdim etməklə qeydiyyatdan keçə bilərsiniz. Sənədlər **15 iyul, 2022-ci il saat 13:00-a** qədər hər iş günü saat 10:00-dan 17:00-a qədər qəbul olunacaqdır (13:00- 14:00 nahar fasiləsi). “ADA” Universitetinə sənəd qəbuluna yalnız abituriyent və onun valideynləri buraxılacaqdır. Abituriyentin qeydiyyata şəxsən gəlməsi mütləqdir.

Sənədlər kağız şəklində və tam gətirilməlidir. Tam sənədləri təqdim etməyən abituriyentlərin qeydiyyatı tamamlanmayacaq.

**Sənədlərin siyahısı:**

- Attestatın əsli (olduğu halda)
- Abituriyentin şəxsiyyət vəsiqəsinin surəti (hər iki üzü)
- DİM-in iş nömrəsi (6 rəqəmli) - ayrı vərəqdə aydın xətt ilə yazılmalıdır
- Hərbi bilet və ya çağırış məntəqəsinə təhkim edilmə haqqında vəsiqənin bütün yazılı səhifələrinin surəti (yalnız oğlanlar üçün)
- Tələbə müqaviləsi: qeydiyyat linkindən ixtisasa uyğun müqavilə iki nüsxədə çap olunmalı və imzalanmalıdır. Abituriyentin 18 yaşı olmadığı halda, müqavilə hər iki valideyn və ya rəsmi qəyyum tərəfindən imzalanmalıdır.
- Abituriyentin 18 yaşı olmadığı halda:
    a. Hər iki valideyn və ya rəsmi qəyyumun şəxsiyyət vəsiqələrinin surəti
    b. Abituriyentin doğum haqqında şəhadətnaməsinin surəti
- Ödəniş qəbzi: ödəniş formasından istifadə etməklə bankda və ya bu linkdə (https://online.ada.edu.az/payment/) onlayn ödəniş etmək mümkündür. Qeydiyyat linkində onlayn ödəniş təlimatı ilə tanış ola bilərsiniz.
  ***Qeyd:*** *Ödənişlərin hesabımıza həmin gün daxil olması üçün ödənişləri Onlayn və ya PAŞA Bankda etməyiniz tövsiyyə olunur. Digər hallarda ödənişlər 2-3 iş günü ərzində hesabımıza mədaxil olacaqdır.*
- 4 ədəd fotoşəkil (3x4)- abituriyentin adı və soyadı şəklin arxasına yazılmalıdır

Qeydiyyatdan keçmiş abituriyentlər avqust ayı ərzində universitet tərəfindən elan olunmuş və abituriyentin ADA e-mailinə göndərilmiş tarixlərdə aşağıdakı iki mərhələni də yerinə yetirməlidirlər. Əks halda, abituriyentin qeydiyyatı tamamlanmır. Bu prosesin 15-25 avqust tarixlərində aparılacağı gözlənilir.

1. Təhsil Nazirliyinin portalında elektron qeydiyyat
2. Attestatın əslinin təhvil verilməsi (ilkin qeydiyyat zamanı verilmədiyi halda)

Qeydiyyat üçün birinci semestrlik təhsil haqqının və tələbə xərclərinin ödənilməsi tələb olunur. Birinci semestr üçün təhsil haqqı və tələbə xərcləri ixtisaslar üzrə aşağıda göstərilmişdir. Bu ödəniş depozitdir və heç bir halda geri qaytarılmır.

| **İxtisas** | **Birinci semestr üçün tam təhsil haqqı və tələbə xərcləri** | **1500 və yuxarı SAT nəticəsi ilə qəbul olmuş tələbələr üçün ödəniş məbləğləri** |
|---|---|---|
| Biznesin idarə edilməsi | 3250 AZN | 1813 AZN |
| İqtisadiyyat | 3250 AZN | 1813 AZN |
| Maliyyə | 3250 AZN | 1813 AZN |
| Beynəlxalq münasibətlər | 3000 AZN | 1688 AZN |
| Dövlət və ictimai münasibətlər | 3000 AZN | 1688 AZN |
| Kommunikasiya və rəqəmsal media | 3000 AZN | 1688 AZN |
| Kompüter elmləri | 3000 AZN | 1688 AZN |
| Kompüter mühəndisliyi | 3000 AZN | 1688 AZN |
| İnformasiya texnologiyaları | 3000 AZN | 1688 AZN |
| Riyaziyyat | 3000 AZN | 1688 AZN |
| Elektrik və elektronika mühəndisliyi | 3000 AZN | 1688 AZN |

**Təhsil haqqından azad olunan tələbələr (birinci semestr üçün tələbə xərclərinin (375 AZN) ödənilməsi tələb olunur):**

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq I və II qrup əlillər (sağlamlıq imkanları məhdud şəxslər), məcburi köçkünlər, müharibə əlillərinin uşaqları, şəhid ailəsinin 23 yaşınadək olan üzvləri, bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 23 yaşınadək olan şəxslər təhsil haqqından azad olunurlar. Həmin şəxslər "ADA" Universitetində qeydiyyat zamanı müvafiq sənədlərin surətini təqdim etməlidirlər (məcburi köçkün vəsiqəsi, əlillik vəsiqəsi və ya əlillik haqqında arayış, şəhidlik vəsiqəsi, valideynlərin ölüm haqqında şəhadətnaməsi- sənədlərin əsli və surəti).

Əlaqə məlumatı:

Elektron poçt: bachelors@ada.edu.az

Telefon: (+994 50) 274 95 52/ (+994 51) 201 15 11